Azərbaycan Turizm və Menecment Universitetində Təhsil proqramlarının yenilənməsi və monitorinqi

QAYDALARI

ATMU-KTŞ-Q(TPYM)-01

BAKI - 2023

Dəyişikliklər haqqında məlumat			
Tarix	**Versiya**	**Tərtib etdi**	**Dəyişikliyin izahı**
09.10.2023	01	Sara Bağırlı Həcər Eldarova	Təhsil proqramlarının əmək bazarının tələblərinə müvafiq olar yenilənməsi və monitorinqi məsələlərinin tənzimlənməsi

Mündəricat

I. Ümumi müddəalar 4

II. Monitorinqin məqsədi və vəzifələri 4

III. Təhsil proqramlarının yenilənməsi və monitorinqinin təşkili 5

IV. Təhsil proqramlarının yenilənməsi və monitorinq üzrə işçi qrupun tərkibi və təşkili 9

V. İşçi qrupun hüquq və vəzifələri 9

VI. Yekun müddəalar 10

"Təsdiq edirəm"
Azərbaycan Turizm və Menecment Universitetinin rektoru
İ.İ.Mədətov



I. Ümumi müddəalar

1.1. Təhsil proqramlarının yenilənməsi və monitorinqi Qaydaları (bundan sonra, Qaydalar) Azərbaycan Turizm və Menecment Universitetində (bundan sonra, Universitet) təhsil proqramlarının monitorinqinin (bundan sonra, Monitorinq) təşkilati-hüquqi əsaslarını, Monitorinq prosesi iştirakçılarının hüquq və vəzifələrini tənzimləyir.

1.2. Təhsil proqramlarının yenilənməsi və monitorinqi Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununa, "Ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə qiymətləndirmə Meyarları" və "Ali təhsil müəssisəsinin proqram akkreditasiyası üzrə qiymətləndirmə Meyarları"nın təsdiq edilməsi barədə Elm və Təhsil Nazirliyinin Kollegiyasının 30.09.2022-ci il tarixli KQ-05 saylı Qərarına, Universitetin Keyfiyyət təminatı şöbəsinin, həmçinin, tədris strukturlarının Əsasnamələri və digər müvafiq normativ-hüquqi aktlara uyğun olaraq həyata keçirilir.

1.3. Monitorinqin koordinasiyası Keyfiyyət təminatı şöbəsi tərəfindən aparılmaqla, ATMU-nun Tədris-metodiki Şuralarında icrası təmin edildikdən sonra Elmi Şurada təsdiq olunur.

II. Monitorinqin məqsədi və vəzifələri

2.1. Monitorinqin əsas məqsədi ATMU-da tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun davamlı təkmilləşdirilməsinə nail olmaqdır.

2.2. Monitorinq aşağıdakı vəzifələrin həyata keçirilməsinə xidmət edir:

2.2.1. Təhsil proqramı üzrə ATMU-da əmək bazarının tələblərinə uyğun olaraq tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi

2.2.2. Təhsil proqramında nəzərdə tutulan təlim nəticələri və peşə kompetensiyalarının əldə edilməsinə xidmət edən tələbəmərkəzli tədris sistemin formalaşdırılması

2.2.3. Təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsinə nail olunması.

III. Təhsil proqramlarının yenilənməsi və monitorinqinin təşkili

3.1. ATMU-da təhsil proqramlarının yenilənməsi və monitorinqi "Ali təhsil müəssisəsinin proqram akkreditasiyası üzrə qiymətləndirmə Meyarları"na uyğun olaraq aşağıdakı mərhələlərdə təşkil edilir:

3.2. Təhsil proqramı üzrə təhsilalanların qəbulu prosesinin izlənilir (TMŞ). Bu zaman aşağıdakı məsələlər nəzərə alınır:

3.2.1. Təhsialanların qəbulu dinamikası hazırlanır

3.2.2. Tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında qeyd olunan tələblərin ödənilməsi vəziyyəti araşdırılır

3.2.3. Əmək bazarının tələblərinə uyğun olaraq tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi vəziyyəti araşdırılır

3.2.4. Tələbə qəbulu sifarişlərin formalaşmasında işəgötürənlərin iştirakı vəziyyəti yoxlanılır

3.3. Təhsil proqramı üzrə tədrisin təşkili üçün tədris sənədlərinin mövcudluğu vəziyyəti yoxlanılır (TMŞ). Bu zaman aşağıdakılar nəzərə alınır:

3.3.1. təhsil proqramı üzrə tədris yükünü təsdiq edən sənədlər

3.3.2. ixtisasın (ixtisaslaşmanın) tədris planı

3.3.3. ixtisasın (ixtisaslaşmanın) tədris qrafiki

3.3.4. ixtisas (ixtisaslaşma) üzrə illik işçi tədris planı

3.3.5. tələbənin fərdi tədris planı

3.3.6. müəllimin illik işçi tədris planı

3.3.7. Təlim nəticələrini əks etdirən sillabuslar

3.3.8. Tədris növləri ilə tədrisin təşkilinin uyğunluq dərəcəsi

3.3.9. Sərbəst iş, kurs işi, referat, buraxılış işi və magistr dissertasiyalarının hazırlanması vəziyyəti

3.3.10. Təhsil proqramı üzrə təcrübə işinin təşkili vəziyyəti

3.3.11. Təhsil proqramı üzrə stajkeçmənin təşkili vəziyyəti

3.3.12. Məsləhət xidmətlərinin təşkili vəziyyəti

3.3.13. İmtahan sessiyalarının (o cümlədən, yay sessiyası) təşkili vəziyyəti

3.3.14. Kredit borcu qalan tələbələrin dinamikasının izlənilməsi

3.4. Təhsil proqramı üzrə tətbiq olunan tədris metodları və üsulları izlənilir. Bu proses ATMU-da kafedralar üzrə "Açıq dərs" qrafiklərinə, eləcə də ümumilikdə "Təlim prosesinin monitorinqi qaydaları"na əsasən aparılır. Bununla yanaşı, aşağıdakılar nəzərə alınır:

3.4.1. Təhsil proqramı üzrə innovativ, yaradıcı, interaktiv metodların mövcudluğu

3.4.2. Tələbəyönümlü, sərişte əsaslı, nəzəriyyə və praktik tətbiqə əsaslanan yanaşmanın mövcudluğu

3.4.3. Tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış metod və üsulların tətbiqi vəziyyəti

3.4.4. Tədris prosesinin texnoloji avadanlıqlarla təmini vəziyyəti

3.4.5. Təhsil proqramı üzrə tədris materialları

3.4.6. Təhsil proqramı üzrə metodik göstərişlər, tədris metod və üsullarına dair təlimatlar

3.4.7. Təhsil proqramı üzrə tədris metod və üsullarının təkmilləşdirilməsi istiqamətində aparılmış sorğular, aparılmış testlər, təhlillər

3.4.8. Təhsil proqramı üzrə tədris metod və üsulları barədə keçirilmiş iclaslar, tədbirlər, konfranslar, seminarlar, görüşlər (protokollar, rəsmi istinadlar, məlumatlar, nəşrlər və s.)

3.5. Təhsil proqramı üzrə istifadə olunan təlim və tədris resursları və maddi-texniki baza yoxlanılır. Bu zaman aşağıdakılar nəzərə alınır:

3.5.1. Təlim və tədrisin elektron idarəetmə sisteminin mövcudluğu vəziyyəti

3.5.2. Texnika (proyektorlar, kompüter, internetə qoşulmuş kompüter, kompüter laboratoriyaları, rəqəmsallaşma, ağıllı lövhələr və s) ilə tam təchiz olunmuş auditoriyaların mövcudluğu vəziyyəti

3.5.3. Təhsil proqramı üzrə təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi vəziyyəti

3.5.4. Funksional elektron tədris platformasının və jurnalın mövcudluğu vəziyyəti

3.5.5. İnternetə qoşulmuş kompyuterlərin və kompyuter laboratoriyalarının sayının ümumi tələbə sayına nisbəti

3.5.6. Auditoriya fondunun (kv m.) onun tələbə sayına nisbətdə artım dinamikası

3.5.7. Təhsil proqramı üzrə kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) sayının fondda olan ümumi kitabların sayına nisbəti

3.5.8. Təhsil proqramı üzrə tədris dillərinə uyğun dərslik və dərs vəsaitinin digər dillərdə olan ədəbiyyat sayı

3.5.9. Tədris otaqlarının dövlət standartlarına uyğunluğu, təlim və tədris bazasının, tədris laboratoriyalarının mövcudluğu vəziyyəti

3.5.10. Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturunun mövcudluğu və infrastrukturun hər kəs üçün əlçatanlığı vəziyyəti

3.6. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi prosesi izlənilir (TQŞ). Bu zaman aşağıdakılar nəzərə alınır:

3.6.1. Təhsil proqramı üzrə qiymətləndirmədə ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması və qiymətin əsaslandırılması vəziyyəti

3.6.2. Təhsil proqramı üzrə bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedurları və qaydaların mövcudluğu

3.6.3. Təhsil proqramı üzrə əmrlər, qərarların mövcudluğu

3.6.4. Təhsil proqramı üzrə qiymətləndirmə cədvəllərinin mövcudluğu

3.6.5. Təhsil proqramı üzrə hesabatların mövcudluğu

3.6.6. Təhsil proqramı üzrə qiymətləndirmə prosedurları ilə əlaqəli təhlillərin aparılması

3.6.7. İnformasiya idarəetmə sisteminin mövcudluğu və funksionallığı

3.7. Təhsil proqramına cəlb olunan professor-müəllim heyəti

3.7.1. Akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifəyə təyinatının şəffaf və ictimaiyyət üçün əlçatanlığın təmin olunması vəziyyəti

3.7.2. Təlim proqramları, təlim materialları, təlim qrafiklərinin mövcudluğu

3.7.3. Təhsil proqramı üzrə tədris yükləri və tədris planları

3.7.4. Təhsil proqramı üzrə işçilərin şəxsi işləri

3.8. Təhsil proqramı üzrə tələbəyönümlü tədrisin mövcudluğu izlənilir. Bu zaman aşağıdakılar nəzərə alınır:

3.8.1. Təhsil proqramı üzrə təhsilalanın fərdi tədris planı

3.8.2. Təhsil proqramı üzrə seçmə fənlərin, təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən seçiminin sərbəstliyinin təmin edilməsini təsdiq edən sənədlər

3.8.3. Təhsil proqramı üzrə tələblər arasında keçirilmiş rəy sorğuları

3.8.4. Təhsil proqramı üzrə tələbələrin rəylərinin təhlili üzrə materiallar

3.8.5. Tələbə və akademik məsləhətçilər arasında müxtəlif vasitələrlə kommunikasiya vasitələrinin mövcudluğunu təsdiq edən sübutlar

3.9. Təhsil proqramı üzrə təhsilalanlara karyera xidməti və məzunlarla davamlı əlaqə sisteminin mövcudluğunun monitorinqi

3.9.1. Təhsil proqramları üzrə tələbələrin məzun olduqları ildə əmək fəaliyyətinə başlama göstəricisi (bütün məzunlara nisbəti 80%=3 bal) və dəyişmə dinamikası

3.9.2. Təhsil proqramları üzrə tələbələrin kompetensiyalarına və ixtisaslarına uyğun əmək fəaliyyətinə başlama göstəricisi (bütün məzunlara nisbəti) və dəyişmə dinamikası

3.9.3. Təhsil proqramları üzrə tələbələrin keçdikləri təcrübənin nəticələrinə görə əmək fəaliyyətinə dəvət olunma göstəricisi (bütün məzunlara nisbəti) və dəyişmə dinamikası

3.9.4. Əmək bazarının tələblərinə cavab verən (son 3 ildə işədüzəlmə göstəricisi yüksək olan) təhsil proqramları üzrə tədris alan tələbələrin sayı (bütün tələbələr nisbəti) və dəyişmə dinamikası

3.9.5. Təhsil proqramı üzrə əmək yarmarkaları, sorğular və s.

3.10. Təhsil proqramlarının monitorinqinin aparılması zamanı aşağıdakı amillər izlənilir:

3.10.1. Təhsil proqramlarının monitorinqi strategiyasının və fəaliyyət planının mövcudluğu

3.10.2. Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanlarının mövcudluğu

3.10.3. Təhsil proqramlarının monitorinqinin faydaları və onların daxili keyfiyyət təminatı sisteminə tövhəsinin qiymətləndirilməsinin aparılması vəziyyəti

3.10.4. Təhsil müəssisəsində tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi vəziyyəti

3.10.5. Təhsil proqramının yenilənməsinə maraqlı tərəflərin cəlb olunması vəziyyəti

3.11. Təhsil proqramının monitorinqinin yekunlarına Monitorinq qrafikinə uyğun hesabatlılıq təmin edilir.

3.12. Yekunda Özünüqiymətləndirmə hesabatı hazırlanmaqla və təkliflər verilir.

IV. Təhsil proqramlarının yenilənməsi və monitorinq üzrə işçi qrupun tərkibi və təşkili

4.1. Təhsil proqramının yenilənməsi və monitorinqi məqsədilə işçi qrup formalaşdırılır və prosesin təşkili və izlənilməsi onlar tərəfindən həyata keçirilir.

4.2. İşçi qrupun tərkibində ixtisas fakültə və kafedralarından nümayəndələr, Tədris-metodiki, Təhsildə qiymətləndirmə və Keyfiyyət təminatı şöbələrindən, eləcə də ATMU-nun maraqlı tərəflərindən (əmək bazarı, təhsilalanlar və s. kimi) nümayəndələr cəlb edilir.

4.3. İşçi qrup öz fəaliyyətini iki istiqamətdə təşkil edir: mövcud təhsil proqramının yenilənməsi və mövcud təhsil proqramının monitorinqi. Bu zaman, təhsil proqramının yenilənməsi Tədris-metodiki şöbə, monitorinq isə Keyfiyyət təminatı şöbəsi tərəfindən koordinasiya edilir.

4.4. Təhsil proqramının yenilənməsi və monitorinqi 4.2.bəndində adıçəkilən strukturların birgə fəaliyyəti ilə aparılır.

4.5. İşçi qrupun səlahiyyət müddəti onun yaradılması haqqında müvafiq əmrlə müəyyən edilir.

4.6. İşçi qrup öz fəaliyyətinə dair iclasların və görüşlərin sənədləşmələrini aparır, hesabatlılığı təmin edir

4.7. Təhsil proqramının yenilənməsi üçün təklif və tədbirlər planı hazırlamaqla müzakirəyə çıxarır

4.8. Təhsil proqramlarının monitorinqinin aparılmasında bu sənədi və Ali təhsil müəssisələrinin institusional və proqram akkreditasiyası meyarların nəzərdə tutulan məsələləri əsas götürür.

V. İşçi qrupun hüquq və vəzifələri

5.1. İşçi qrup monitorinq prosesində aşağıdakı hüquqlara malikdir:

5.1.1. Monitorinq aparmaq məsədilə lazımi sənədləri əldə etmək və monitorinq fəaliyyətinin tələb etdiyi digər imkanlardan istifadə etmək;

5.1.2. Monitorinq prosesinin səmərəli təşkili üçün rəy və təklifləri bildirmək;

5.1.3. Monitorinq aparılacaq fənnin sillabusu, fənn proqramı, mövcud təhsil proqramı və tədris resursları ilə tanış olmaq.

5.2. İşçi qrup Monitorinq prosesində aşağıdakı vəzifələri icra etməlidir:

5.2.1. Monitorinq olunacaq fənn üzrə sillabus, fənn proqramı və müvafiq təhsil proqramı ilə tanış olmaq;

5.2.2. Müvafiq ixtisas üzrə maraqlı tərəfləri prosesdə iştiraka cəlb etməklə rəyləri öyrənmək;

5.2.3. Təhsil proqramının səmərəliliyini qiymətləndirmək, bunun üçün cari sənəddə göstərilən meyarları əsas tutmaq

5.2.4. Monitorinqlə bağlı hazırlanacaq yekun hesabatın tərtibi prosesində iştirak etmək;

5.2.5. Monitorinq prosesinin subyektlərinə hörmətlə yanaşmaq.

VI. Yekun müddəalar

6.1. Təhsil proqramının yenilənməsi və monitorinqin nəticələri kafedra iclaslarında, fakültə Tədris-Metodiki Şurasında və ATMU Tədris-metodiki şurasında müzakirə edilir.

6.2. Müvafiq işçi qrupu nəticələrə dair hesabat hazırlayır. Bunun əsasında Tədris-metodiki Şura yekun hesabatı hazırlayır və təkmilləşdirmə və ya yenilənmə üçün təkliflər irəli sürür.

6.3. Təkliflər və nəticələr yekunda ATMU Elmi şurasında müzakirə və təsdiqini tapır.

Hazırki Qaydalar 03 noyabr 2023 *cü il tarixli Elmi Şura iclasında* 2 *№-li protokolla təsdiq olunmuşdur.*